*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 fevral 2020-ci il № 14 (2432) Qiyməti 30 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İtaliya Respublikasına dövlət səfərinə gəlib.*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Romadakı məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Qeyd edək ki, bu abidə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli Sərəncamına əsasən ucaldılıb. Həmin Sərəncama əsasən, Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı olub. Abidənin müəllifləri Xalq rəssamları Salxab Məmmədov və Əli İbadullayevdir.

* * *

İtaliya Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 20-də Romada rəsmi qarşılanma mərasimi keçirilib.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü olub.

Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bir daha vurğulandı. Bu münaqişənin məhz Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri və Helsinki Yekun Aktına əsasən həll edilməsinin zəruriliyi bildirildi.

Söhbət zamanı ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələrin inkişafında Heydər Əliyev Fondunun rolu xüsusi qeyd olundu. 2020-ci ilin İtaliyada mədəniyyət baxımından "Azərbaycan ili" elan edildiyi diqqətə çatdırıldı.

Fevralın 20-də geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella mətbuata bəyanatlarla çıxış ediblər.

## Prezident Sercio Mattarellanın bəyanatı

- Prezident İlham Əliyevi Kuirinaledə qarşılamaq mənim üçün çox böyük məmnunluqdur və böyük şərəfdir. Bu, onun İtaliyaya ilk dövlət səfəridir. Çox məmnunam ki, mənim Bakıya təqribən iki il bundan əvvəlki səfərimdən sonra cənab Prezidentin buraya səfəri baş tutur. İki il bundan əvvəlki səfərdən mənim çox gözəl xatirələrim var. Bu gün cənab Prezidentin Romaya səfəri bir daha İtaliya ilə Azərbaycan arasındakı əlaqələrin nə qədər güclü olduğunu göstərir.

Biz artıq apardığımız danışıqlar nəticəsində bir neçə məsələni qeyd etdik. Burada İtaliya ilə Azərbaycan arasında olan əlaqələri xüsusilə vurğuladıq. Yalnız enerji sahəsində deyil, həmçinin digər sahələrdə, həm siyasi, həm mədəni sahələrdə olan əlaqələri vurğuladıq. Burada müxtəlif sahələrdə tərəfdaşlığın gücləndirilməsi ilə bağlı Birgə Bəyannamə qeyd olundu. Cənab Konte və cənab Prezident tərəfindən imzalanan bu bəyannamə əlaqələrimizin demək olar ki, bütün sahələrdə inkişafına təkan verəcək.

İtaliya ilə Azərbaycan bir-biri ilə dost ölkələrdir və regionda əsas tərəfdaşlardır. Azərbaycan dialoqa çox açıq və bütün dünya tərəfindən görünən müasir bir ölkədir. Burada mən, həmçinin Qoşulmama Hərəkatına Azərbaycanın üçillik sədrliyini qeyd etmək istəyirəm. Azərbaycan bu öhdəliyi öz üzərinə götürmüşdür və bu, onun beynəlxalq sahədəki işini daha da gücləndirəcək. Mən bu işdə cənab Prezidentə uğurlar arzulayıram.

Biz iqtisadi-ticari sahədə çox intensiv əlaqələrə malikik, çox böyük inkişafla irəli gedirik. İtaliya müəssisələri Azərbaycana cəlb olunur, bir çoxları işləyir və bundan sonra digərləri də bu sahəyə cəlb olunacaqlar.

Bundan başqa, cənab Prezident və bütün hökumət ölkənin iqtisadi-siyasi həyatının şaxələndirilməsi ilə bağlı bir çox planlar reallaşdırır. Biz bu işə dəstək olmaq üçün hər zaman hazırıq. Bugünkü görüşlər zamanı bir neçə sahə üzrə imzalanmış sazişlər mübadilə olunacaq. Bu, bizim iqtisadi, siyasi sahələrdə inkişaf edən əməkdaşlığımızın bariz göstəricisidir. Bundan əlavə, Cənub Qaz Dəhlizi layihəsini qeyd etmək istərdim. Artıq TAP layihəsi üzrə işlər yekunlaşmaq üzrədir. Bu, İtaliya ilə Azərbaycan arasında əlaqələrin daha da inkişafına, həmçinin Xəzər dənizi və Aralıq dənizi regionlarında sabitliyin qorunmasına yardımçı olacaq.

Mən Azərbaycanın beynəlxalq məsələlərə müsbət baxışını qeyd etmək istərdim. Azərbaycan enerji sahəsində hər zaman hamı ilə əməkdaşlıq etməyə açıq bir ölkədir. Mən bir daha qeyd etməliyəm ki, Azərbaycan beynəlxalq məsələlərdə bütün ölkələrlə dialoqa hazırdır. Bundan başqa, bir qədər öncə biz cənab Prezidentlə qeyd etdik ki, ölkələrimiz arasında mədəni sahədə də inkişaf gedir. Bugünkü görüşlər zamanı bu sahədə də bir çox sazişlərin imzalanması gözlənilir və bütün bu sazişlər çox mühümdür. Lakin mən onların içərisində ən mühümlərindən birini xüsusi qeyd etmək istərdim. Azərbaycanın Azərkosmos şirkəti ilə İtaliyanın tərəfdaş şirkəti arasında gələcək əməkdaşlıq və yüksək texnologiyanın tətbiqi ilə bağlı saziş mübadilə olunacaq.

Mən artıq cənab Prezidentə bu barədə bildirdim ki, 2020-ci il İtaliyada "Azərbaycan ili" elan olunub. Bu, bizim əlaqələrimizi, dostluğumuzu, əməkdaşlığımızı artırmağa kömək edəcək və iki ölkə arasında münasibətləri daha da intensivləşdirəcək. Bundan başqa, biz, həmçinin Dağlıq Qarabağla bağlı müəyyən bir sabit nəticənin əldə olunması haqqında danışdıq. Biz bu məsələyə İtaliya tərəfindən hər zaman dəstək olduğumuzu bildiririk. Biz ümid edirik ki, bu məsələ üzrə siyasi danışıqlar sayəsində qısa bir zamanda müəyyən nəticələr əldə olunacaq.

İtaliya Azərbaycanla Avropa İttifaqı arasında da əlaqələrə hər zaman dəstək olmağa hazırdır. Biz Avropa İttifaqı və Azərbaycan arasındakı əlaqələrə stimul olmaq üçün bu sahədə də çox geniş formada əməkdaşlıq etməyə hazırıq. İtaliya Azərbaycanı, həmçinin Avro-Atlantik Tərəfdaşlıq üzrə də ən əsas tərəfdaş kimi görür. Əfqanıstanda terrorizmə qarşı mübarizədə və gördüyünüz kimi, hər bir sahədə bizim ölkələrimiz arasında əməkdaşlıq çox yüksək səviyyədədir. Azərbaycan hər zaman bu əməkdaşlıqda İtaliyanın dostluğuna və dəstəyinə əmin ola bilər. Bir daha xoş gəlmisiniz.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri



(Əvvəli 1-ci səhifədə)

## Prezident İlham Əliyevin bəyanatı

- Təşəkkür edirəm, hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, məni İtaliyaya dövlət səfərinə dəvət etdiyinizə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Bu gün həm təkbətək görüş zamanı, həm də nümayəndə heyətlərinin iştirakı ilə aparılan danışıqlarda bir daha əmin oldum ki, İtaliya və Azərbaycan bir-birinə çox yaxın olan dost ölkələrdir.

Cənab Prezident, Sizin Azərbaycana rəsmi səfərinizi məmnuniyyətlə xatırlayıram. Həmin səfər ölkələrimizin gələcək əməkdaşlığına çox güclü təkan vermişdir və səfər zamanı əldə edilmiş bütün razılaşmalar bu gün həyatda öz əksini tapır.

Bu gün çoxsaylı ikitərəfli sənədlərin imzalanması nəzərdə tutulur. Onların hər biri çox önəmlidir, bir çox sahələri əhatə edir. Ancaq mən xüsusilə strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannaməni qeyd etmək istərdim. Çünki bu bəyannamədə, əslində, bizim strateji tərəfdaşlığımızın gələcək istiqamətləri müəyyən edilir. Bu, çox dərin və müfəssəl sənəddir və həm siyasi, həm iqtisadi, mədəni, humanitar, bütün sahələri əhatə edən bir sənəddir. Eyni zamanda, İtaliya və Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə dəstək göstərməsi haqqında da müddəa var. Bu da yaxın, dost ölkələr, müttəfiqlər arasında olan bir məsələdir.

İqtisadi sahədə əməkdaşlığımızın gələcək inkişafı çox müsbət olacaqdır. Əminəm ki, bundan sonra biz İtaliya şirkətlərinin qeyri-neft sektorunda əməkdaşlıq etmələrini görəcəyik. Bu günə qədər də bir çox İtaliya şirkətləri Azərbaycanda müxtəlif layihələrdə iştirak etmişlər. Ticarət dövriyyəsinə gəldikdə, İtaliya bizim üçün dünya miqyasında bir nömrəli tərəfdaşdır. Keçən il ticarət dövriyyəmiz 6 milyard dollara çatmışdır. Düzdür, bunun böyük hissəsi neft sektoruna aiddir. Ona görə biz ticarət dövriyyəmizin şaxələndirilməsi ilə bağlı fikir mübadiləsi apardıq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı cənab Prezident dediyi kimi, biz məsələni müzakirə etdik. Bu məsələnin həlli yolları imzalanmış Birgə Bəyannamədə də göstərilir. Orada göstərilir ki, İtaliya və Azərbaycan bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına hörmətlə yanaşır və bunu dəstəkləyir. Eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz bu prinsiplər əsasında, Helsinki Yekun Aktı, BMT və ATƏT tərəfindən qəbul edilmiş qətnamə və qərarların əsasında həll olunması göstərilir. Hesab edirəm ki, bu, çox ədalətli və beynəlxalq hüquqa əsaslanmış mövqedir və bu mövqeyə görə biz İtaliya tərəfinə minnətdarıq.

O ki qaldı, məsələnin konkret həlli ilə bağlı addımlara, Er-



mənistan tərəfindən çox məyusedici və bir-birini inkar edən və ziddiyyətli bəyanatlar səslənir. Ermənistan rəhbəri bir dəfə demişdir ki, Dağlıq Qarabağ Ermənistandır. Ondan sonra demişdir ki, Dağlıq Qarabağ müstəqil dövlətdir. Hər ikisi həqiqəti əks etdirmir. Dağlıq Qarabağ Azərbaycandır. Bunu tarix, beynəlxalq hüququn norma və prinsipləri göstərir. Azərbaycanın ərazi bütövlüyü, o cümlədən Dağlıq Qarabağ daxil olmaq şərtilə bütün dünya tərəfindən tanınır və qəbul edilir. Ona görə münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Biz bu gün, cənab Prezidentin dediyi kimi, mədəniyyət sahəsində əməkdaşlığa da toxunduq. Biz bu sahədə əməkdaşlığı dərinləşdirmək istəyirik. Azərbaycanın İtaliyada Mədəniyyət Mərkəzinin açılışı nəzərdə tutulur. Bir neçə il bundan əvvəl dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsi Villa Borgeze parkında ucaldılıb.

Bizim təhsil sahəsində çox yaxşı əməkdaşlığımız var və bu sahədə də sənədlərin imzalanması nəzərdə tutulur. Hazırda Azərbaycanın 1500-dən çox tələbəsi İtaliyanın ali məktəblərində təhsil alır.

O ki qaldı energetika məsələlərinə, Azərbaycan İtaliya üçün bir nömrəli xam neft təchizatçısıdır. İtaliyanın xam neft istehlakının 17 faizi Azərbaycanın payına düşür. On beş ilə yaxındır ki, Azərbaycan İtaliyaya xam neft ixrac edir və bu müddət ərzində heç bir problem, heç bir fors-major hadisəsi olmamışdır. Yəni, Azərbaycan etibarlı tərəfdaş kimi özünü təsdiqləyib.

O ki qaldı təbii qazın ixracına, bu layihə də yekunlaşmaq üzrədir. TAP layihəsinin icrası 92 faizə çatıbdır və TAP layihəsi Cənub Qaz Dəhlizinin dördüncü və sonuncu layihəsidir. Bundan əvvəl üç layihə icra edilmişdir. Cənub Qaz Dəhlizinin bir tərəfində Azərbaycan və o biri tərəfində İtaliya dayanır. Bizim aramızdakı daha beş ölkə, bütövlükdə yeddi ölkə arasında əməkdaşlıq yaranır. Bu əməkdaşlıq enerji və bütün başqa sahələrə də müsbət təsir göstərəcək. Çünki bu ölkələr artıq bir-biri ilə sıx bağlı olan ölkələr olurlar. Bundan sonra bu ölkələr arasındakı siyasi, iqtisadi, mədəni əlaqələrin inkişafı da, təbii ki, daha sürətlə gedəcək.

Cənub Qaz Dəhlizi tarixi layihədir və mən xüsusilə Prezident Mattarellaya onun göstərdiyi səylərinə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Çünki 2018-ci ilin iyul ayında Azərbaycanda rəsmi səfərdə olarkən Prezidentlə bizim bu barədə söhbətimiz olub. Bu söhbətdən sonra TAP-ın icra edilməsi daha sürətlə getmişdir və hazırda biz layihənin son mərhələsindəyik.

Biz, eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələri haqqında fikir mübadiləsi apardıq. Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzərində iş gedir. Hesab edirəm ki, bu gün imzalanacaq çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə bu saziş üçün də gözəl əsas təşkil edə bilər.

NATO-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Biz qoşunlarımızı Əfqanıstana uzun illər bundan əvvəl göndərmişik. Sülhməramlı əməliyyatlarda Azərbaycan fəal iştirak edir və NATO qoşunları üçün çox önəmli logistik və nəqliyyat xidmətləri göstəririk. Nəzərə alsaq



ki, Azərbaycanın coğrafi yerləşməsi və nəqliyyat infrastrukturu çox əlverişlidir, biz bu sahədə də uğurlu əməkdaşlıq edirik.

Yəni, səslənən bu məsələlər və fikirlər artıq aydın göstərir ki, iki ölkə arasındakı strateji tərəfdaşlıq və dostluq əlaqələri vardır və bu əlaqələr bundan sonra da uğurla inkişaf etdiriləcəkdir. Sağ olun.

* * *

Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Kontenin geniş tərkibdə görüşü başa çatandan sonra Azərbaycan-İtaliya sənədlərinin mübadiləsi mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Konte "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni imzaladılar və mübadilə etdilər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də İtaliya Respublikası Senatının Sədri, senator xanım Maria Elisabetta Alberti Kasellatti ilə görüşüb.

Görüşdə parlamentlərarası əlaqələrin böyük əhəmiyyət kəsb etdiyi diqqətə çatdırıldı, Azərbaycan ilə İtaliyanın ATƏT Parlament Assambleyası, AŞPA və digər qurumlarda da əməkdaşlıq etdiyi vurğulandı. TAP layihəsinin uğurla reallaşdırılmasının, həmçinin İtaliya şirkətlərinin Azərbaycanda enerji və digər sahələrdəki layihələrdə iştirakının əhəmiyyəti qeyd edildi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də İtaliya Respublikası Deputatlar Palatasının sədri Roberto Fiko ilə görüşüb.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini bir daha diqqətə çatdırdı. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar İtaliyanın mövqeyini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev strateji tərəfdaşlığın gücləndirilməsi ilə bağlı Birgə Bəyannamədə İtaliyanın ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına ifadə olunan dəstəyinin, münaqişənin BMT və ATƏT-in müvafiq sənədləri əsasında həllinə dair mövqeyinin təqdir olunduğunu qeyd etdi. Həmçinin İtaliyanın Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına verdiyi dəstək yüksək dəyərləndirildi.

* * *

Fevralın 20-də Romadakı Kuirinale Sarayında "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə konsert proqramı təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella konsert proqramını dinləyiblər.

Konsertdə Azərbaycan Dövlət Kamera Orkestri görkəmli Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini ifa edib.

**AZƏRTAC-ın materialları əsasında**

*Gənc zabitlərimiz*

# Nümunəvi xidmət uğurların başlanğıcıdır

*Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin qərargahında gənc zabitlərimizdən söz düşəndə leytenant Vasif Quluzadənin adını iftixarla çəkdilər. Bir neçə saatlıq yol qət edib onun olduğu bölməyə çatırıq. Burada hiss edilən işgüzar mühit, səliqə-sahman, nizam-intizam komandirin bacarıqlı və səriştəli olmasının təsdiqidir.*

Öyrənirəm ki, Vasif Quluzadə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib.

- Zabit olmağa qərar verəndə hamıdan çox valideynlərimin sevindi, - deyə gənc zabit söhbətə başladı. - Atam dedi ki, Vətəni qorumaq peşəsini seçmək yalnız mərd oğulların işidir. Ailəmizdə hərbçi olmayıb, amma müharibə şəraiti məni bu peşəni seçməyə sövq edib. Fikrimcə, əsl vətəndaş mənsub olduğu dövlətin, üzləşdiyi çətinliklərin cəfakeşi olmalıdır.

- Ali hərbi təhsilini başa vuran kimi cəbhə bölgəsinə xidmətə təyin edildin...

- Hər kəs ürəkdən seçdiyi peşənin çətinliklərinə sinə gərməyi bacarmalıdır. Yaxşı bilirdim ki, məni qarşıda mülki həyatdan fərqli olan çətinliklər gözləyir, amma peşəmə olan sevgim və Vətənimə bağlılığım hər şeyə qalib gəldi. Hər zaman qürur duyuram ki, şərəfli peşəm, müqəddəs vəzifəm var!

Peşəsinə sonsuz sevgisi leytenantın qısa zaman ərzində uğur əldə etməsiylə, komandanlığın etimadını qazanmasıyla nəticələnib. Əlbəttə, başqa amillər də onun bir hərbçi kimi yüksəlməsində əhəmiyyət kəsb edib.

- Bir dəfə hərbi məktəbdən bizi hərbi hissəyə, təcrübə-sınaq aylığına aparmışdılar, - deyə leytenant sözünə davam etdi. - Burada təcrübəli zabitlərlə tanış oldum. Komandirimin şəxsi heyət arasında olan



hörməti mənə xoş ovqat aşıladı. O, ali hərbi təhsilini bir neçə il əvvəl başa vurmuşdu. Onu izlədikcə dərk etdim ki, yaxşı komandir olmaq üçün tabeliyində olan əsgərin hər birinin hörmətini, inamını qazanmalısan. Bu, asan məsələ deyil. Sən bütün bacarığını, idarəçilik qabiliyyətini sübuta yetirməlisən. Əsgərlərinə özün şəxsi nümunə olmalısan. Həm tələbkar olmalı, həm də onlara doğma münasibət bəsləməli, qayğıları ilə yaxından maraqlanmalısan.

Leytenant döyüş növbəsində dayanan əsgərlərin xidmətindən razılığını bildirdi: "Əsgərlərin məsuliyyətli olması biz komandirlərin işini daha da asanlaşdırır. Mən də mütəmadi olaraq döyüş növbəsi aparanları şəxsən yoxlayır, təhlükəli istiqamətləri göstərirəm. Təhlükəsizlik qaydalarına əməl olunmasına ciddi nəzarət edirəm. Vətənə keşik çəkməyin müqəddəsliyini bir daha xatırladıram, xalqımızın, dövlətimizin bizə güvəndiyini, arxalandığını çatdırıram. İstənilən şəraitdə, istənilən bölgədə torpaqlarımızı göz bəbəyi kimi qorumaq hər birimizin mənəviyyat borcudur. Zabit olaraq əsgərlərin hər birinin istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının səviyyəsinin yüksəldilməsinə çalışırıq. Daha doğrusu, bu, biz za-bitlərin vəzifə borcudur. Ali Hərbi Məktəbdə zabitlərdən biri belə demişdi: "Sənin necə zabit olmağın tabeçiliyində olan əsgərlərin döyüş hazırlığının səviyyəsi ilə müəyyənləşdiriləcək." Bu fikri heç zaman unutmamışam, unutmayacam da, - zabit Vasif Quluzadə belə dedi.

Azərbaycanda zabit hazırlığı daim diqqət mərkəzindədir. Bu gün tanıdığım leytenant Vasif Quluzadənin uğurlu xidməti də bunun bariz nümunəsidir. Bölmədəki nizam-intizam, hər əsgərin simasından hiss edilən məğrurluq, Vətənə, torpağa bağlılıq gənc zabitin peşəkarlığının göstəricisidir. Şərəfli yolun astanasında belə nümunəvi xidmət təşkil edən gənc zabitin uğurları qarşıdadır!

Ezamiyyətlərdə zabitlərin əsgərlərə bu səviyyədə münasibətini eşidirəm də, görürəm də. Azərbaycan Ordusu həm də ona görə bu səviyyədə güclü, bu səviyyədə qüdrətlidir ki, hər zabit hər əsgərin fərdi xüsusiyyətləri əsasında hərbi hissənin, hərbi hissənin timsalında ordunun döyüş hazırlığının yüksəldilməsinə məsuliyyətlə yanaşır...

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub**

***21 fevral 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı, Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Naxçıvan Qarnizonu Qoşunlarında taktiki-xüsusi təlim keçirilib

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən, "Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda taktiki-xüsusi təlim keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xilasedici bölmələrinin cəlb edildiyi təlim şəxsi heyətin şiddətli soyuqlarda döyüş tapşırıqlarını yerinə yetirmə bacarıqlarının və həyatda qalma vərdişlərinin təkmilləşdirilməsi məqsədi ilə keçirilib.

Taktiki-xüsusi təlimdə xüsusi təyinatlı qruplar qarlı-şaxtalı havalarda, gündüz və gecə şəraitində şərti düşmən arxasında taktiki fəaliyyətləri icra ediblər. Taktiki fəaliyyətlər zamanı qarlı ərazilərdə şəraitə uyğun maskalanmış snayper cütlükləri şərti tapşırıqları yerinə yetiriblər.

Qarlı-şaxtalı, çovğunlu havalar və çətin keçilə bilən ərazilər üçün nəzərdə tutulmuş təchizat, müxtəlif dağ ləvazimatları, döyüş vasitələri və ərzaqla təmin edilmiş hərbi qulluqçular təlim rayonunda hazırladıqları sığınacaqlarda yaşayıb, gecələyiblər.



Taktiki-xüsusi təlimdə şiddətli soyuqlarda qar uçqununa məruz qalmış və qarlı ərazilərdə itmiş şəxslərin axtarılıb tapılması, ilkin tibbi yardım göstərilməsi və təxliyəsi məşq etdirilib. Beynəlxalq xilasetmə kurslarında təcrübə qazanmış xilasedicilərin də cəlb edildiyi təlimdə qar uçqunları zamanı istifadə olunan xüsusi təyinatlı "Biper" aparatı və şuplar vasitəsilə axtarış-xilasetmə və digər təxirəsalınmaz tədbirlər həyata keçirilib.

Dağlarda döyüş əməliyyatları aparan zaman ərazinin xüsusiyyətlərindən bacarıqla istifadə edərək yaralıların təxliyəsi qaydalarını, praktiki döyüşü mükəmməl mənimsəmiş xüsusi təyinatlı və xilasedici bölmələr təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olublar.

*Qələbə - 75*

# “Ən ağır döyüşlərdə də qələbə çalacağımıza inanırdıq”

*Faşizm üzərində qələbənin 75-ci ildönümü qeyd edilir. İkinci Dünya müharibəsi xalqımızın şanlı tarixinin bir parçasıdır. Qələbə Gününün canlı yaddaşı Qələbənin yükünü çiyinlərində daşıyan veteranlardır.*






Böyük Vətən müharibəsi veteranı, Kəngərlilər nəslinin tanınmış nümayəndələrindən biri Ulduz Səttar oğlu Kəngərli 1924-cü il sentyabrın 28-də İrəvanda anadan olub, ilk təhsilini İrəvan şəhərində alıb.

Ulduz müəllim xatırlayır: “1941-ci ildə, müharibə başlayanda mən hələ 9-cu sinfi bitirməmişdim. Komsomol idim, vətənpərvərlik hissi bizdə çox yüksək idi. Mən və iki yaxın yoldaşım hərbi komissarlığa getdik və xahiş etdik ki, bizi cəbhəyə yollasınlar. Ancaq bizə dedilər ki, sizin yaşınız çatmır. 17 yaşımız tamam olmamışdı. Sonra məni hərbi məktəbə yolladılar. Bu səbəbdən 10-cu sinfi oxumadım. Bundan sonra mən artilleriya məktəbində təhsilimi davam etdirdim. Təhsil ocağında dərslər rus dilində keçirilirdi. Məktəbi bitirdikdən sonra isə... O zaman almanlar Qafqaza yaxınlaşanda dağ şəraitində artilleriya zabitləri tələb olunurdu. Ona görə də məni Tiflisə - Dağ Artilleriya Məktəbində təhsil almağa yolladılar. Orada 8 ay təhsil aldım. Kiçik leytenant rütbəsi ilə 1943-cü ildə 3-cü Ukrayna cəbhəsinə göndərildim. Mən Baş Komandanın, yəni, Stalinin himayəsində olan briqadada - Əlahiddə Tank Əleyhinə Qırıcı Artilleriya Briqadasında taqım komandiri kimi xidmətə başladım”.

O zaman Ulduz müəllimin özündən 3 yaş böyük qardaşı Nurəddin Kəngərli Leninqrad cəbhəsində döyüşürmüş. Leninqrad blokadada olanda Nurəddin serjant olub. Veteranın qardaşı aldığı ağır yaralara görə uzun müddət hospitalda müalicə olunub. Müalicələr müsbət nəticə verməyib, Nurəddin dünyasını dəyişib...

Cəbhədən, döyüşlərdən söz düşəndə müharibə veteranı qeyd etdi ki, döyüşdüyü alayın nömrəsi 1172 idi. "Döyüşlərə Qərbi Ukraynadan başladıq, Rumıniyaya, Macarıstana və Avstriyaya keçdik... Deyirlər ki, ümid ən sonda ölür. Mən isə düşünürəm ki, döyüş meydanında ümid heç zaman ölmür. Biz ən ağır döyüşlərdə də qələbə çalacağımıza inanırdıq".

Veteran Macarıstandakı Balaton gölünün yaxınlığında yerləşən Sitişvehervar şəhəri uğrunda gedən döyüşləri də xatırladı. "O şəhər dəfələrlə əldən-ələ keçmişdi. Mən onun uğrunda bütün döyüşlərdə iştirak etdim, axırda onu azad etdik...".

Müharibənin bitməsini, Qələbə xəbərini aldığı günü belə xatırladı:

- Biz Macarıstandan Avstriyaya keçdik. Obervart şəhərini azad edəndə may ayı idi. Xəbər gəldi ki, müharibə qurtardı. Son günlər atışmalar da səngimişdi. Mayın 1-də zabitlər üçün çox böyük bayram təşkil etdilər. Biz bayram keçirdik. Səngərlərdən çıxmışdıq və evlərdə məskunlaşmağa icazə verilmişdi. Çox möhtəşəm bir banket düzəldildi. Bayram tədbiri səhərdən gecə yarısına qədər davam etdi. 1945-ci il mayın 2-də gecə yarısı bir polkovnik gəlib elan etdi ki, Berlin alındı. İndi təsəvvür edin... O gün bizim ən möhtəşəm bayramımız oldu...

Ulduz Kəngərli 1947-ci ildə ordu sıralarından qayıtdıqdan sonra Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1952-ci ildə həmin institutun Energetika fakültəsini, 1958-ci ildə isə Azərbaycan EA-nın aspiranturasını bitirmiş, namizədlik dissertasiyasını müdafiə etmiş və texnika elmləri namizədi alimlik dərəcəsini almışdır.

Ulduz Kəngərli 2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Ulduz müəllim dövlət başçısının müharibə veteranlarına diqqət və qayğısından danışdı və ölkə başçısına minnətdarlığını bildirdi. Bu gün Azərbaycanın güclü orduya malik olmasıyla qürurlanan müharibə veteranı vurğuladı ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inkişaf etdirilən ordu quruculuğu strategiyasının nəticəsi olaraq Azərbaycanda qüdrətli ordu formalaşıb. "İnanıram ki, çox yaxında biz Qarabağın azadlığını da qələbə paradı ilə qeyd edəcəyik".

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# “Azərbaycan Prezidenti dünya birliyinə işğalçının kim və həm də necə riyakar olduğunu göstərdi”

*Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr Gürcüstan siyasətçilərinin də diqqət mərkəzindədir.*

Politoloq Tengiz Txilava AZƏRTAC-a müsahibəsində deyib ki, panel müzakirələr zamanı Azərbaycan Prezidenti çox dəqiq, səlis və məntiqli çıxışı ilə bir daha dünya ictimaiyyətinə işğalçının kim və həm də necə riyakar olduğunu göstərdi.

Tengiz Txilava deyib ki, Ermənistan ərazisində heç bir hərbi əməliyyat keçirilməyib və keçirilmir. Hərbi əməliyyatlar tarixi Azərbaycan ərazilərində gedib və gedir. Bu da kimin işğalçı olduğunu bir daha sübut edir. Panel müzakirələrdə Prezident İlham Əliyevin təmkinli və məntiqi çıxışı bir daha göstərdi ki, Azərbaycan çox haqlı və düzgün yoldadır, sülhsevər ölkədir. Prezident İlham Əliyevin ermənilərə xitabən "əgər siz öz müqəddəratınızı təyin etmək istəyirsinizsə gedin bunu başqa yerdə edin" deməsi əsl siyasətçinin düzgün və dəqiq gedişi, rəqibə məğlubiyyətin acısını hiss etdirməkdir.

Politoloqun sözlərinə görə, bu gün ABŞ-da, Rusiyada, Fransada, hətta Venesuelada yaşayan ermənilərin sayı Azərbaycanda yaşayan ermənilərin sayından çoxdur. Belə olan halda ermənilər niyə məhz Azərbaycan ərazisində yenidən öz müqəddəratlarını təyin etməlidirlər? Nəzərə alsaq ki, ermənilər artıq bunu bir dəfə Azərbaycan ərazilərində ediblər.

Tengiz Txilava deyib ki, XIX əsrin əvvəllərində Çar Rusiyasının statistik məlumatlarına görə, İrəvan xanlığı ərazisində əhalinin 89 faizi azərbaycanlılar olub. Qalan 11 faizini isə təkcə ermənilər deyil, digər milli azlıqlar təşkil ediblər. Məhz bu tarixi faktlardan çıxış edərək deyə bilərik ki, ermənilər bu ərazilərdə sonradan gəlmədirlər.

Politoloq bildirib ki, Ermənistan öz ordusunu Dağlıq Qarabağdan və işğal etdiyi digər Azərbaycan torpaqlarından çıxarmalıdır. Dağlıq Qarabağ və işğal altında olan rayonlar beynəlxalq hüquqla təsdiq olunmuş Azərbaycan torpaqlarıdır. Qondarma "Dağlıq Qarabağ respublikası" isə heç kim, hətta Ermənistanın özü tərəfindən tanınmayan oyuncaq bir qurumdur. Paşinyanın öz oğlunu belə Dağlıq Qarabağda hərbi xidmətə göndərməsi ucuz siyasi oyunbazlıqdan başqa bir şey deyil. Paşinyan xarici siyasətdə heç bir uğur əldə edə bilməyib və edə bilməyəcək də. Münxen müzakirələri göstərdi ki, o tarixi də dərindən bilmir. Onun sərsəm bəyanatları, müxtəlif bəhanələri vaxt uzatmaqdan başqa bir şey deyil. Dünya birliyi yaxşı başa düşür ki, ermənilər işğal etdikləri torpaqlardan geri çəkiləcəklər. Azərbaycan Prezidentinin çıxışındakı qətiyyət, həyata keçirdiyi siyasət bunu deməyə əsas verir. Dünya birliyi də bunu bilir və sadəcə, müharibə olmasını istəmir. Beynəlxalq ictimaiyyət yaxşı başa düşür ki, Azərbaycan indi 20-30 il bundan əvvəlki Azərbaycan deyil. Azərbaycan Ordusu məlum Aprel döyüşlərində bunu sübut etdi. Hamı yaxşı başa düşür ki, əgər Azərbaycan yenidən hərbi əməliyyatlara başlasa bu, Ermənistanın sonu ola bilər. "Bu gün Ermənistan vaxt uzadır. Mən inanıram ki, gec-tez Azərbaycan öz torpaqlarını işğaldan azad edəcək", - deyə Tengiz Txilava vurğulayıb.

# Əlahiddə Ümumqoşun Ordunun kursant və əsgərləri muzeyləri ziyarət ediblər



*Əlahiddə Ümumqoşun Ordunun kursant və əsgərləri Naxçıvan Muxtar Respublikasının tarixi-mədəni abidələrində və muzeylərində olublar.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, həftə ərzində dərslərdə fərqlənən Heydər Əliyev adına Hərbi Liseyin kursantları və hərbi xidmətdə yüksək nəticələr göstərən əsgərlər Heydər Əliyev Muzeyini, Cəmşid Naxçıvanski, Milli Dəyərlər, Dövlət Bayrağı, Naxçıvan Dövlət Tarix Muzeylərini, Hüseyn Cavidin Ev Muzeyini, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Mömünə Xatun və Açıq Səma Altında Muzey Kompleksini və muxtar respublikanın rayonlarında fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərini ziyarət ediblər.

Adı çəkilən mədəniyyət ocaqlarında bələdçilər tərəfindən zəngin tariximizi, mədəniyyətimizi, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini özündə əks etdirən eksponatlar haqqında ziyarətçilərə ətraflı məlumat verilib.



# Respublika Veteranlar Təşkilatında Xocalı faciəsi qurbanlarının xatirəsi anılıb




Ermənilərin törətdiyi və bəşər tarixinin ən dəhşətli qırğınlarından biri olan Xocalı faciəsi Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı siyasətinin bir hissəsidir. Xocalı faciəsi tarixin yaddaşından heç vaxt silinməyən, dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda, Serebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş sovet ordusuna məxsus 366-cı motoatıcı alayın köməyi ilə Xocalı əhalisini vəhşicəsinə qətlə yetirdi, soyqırımı törətdi. Xocalı soyqırımına ilk dəfə siyasi-hüquqi qiymət məhz ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verilib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar fevralın 18-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında veteranların, ziyalıların, gənclərin iştirakı ilə keçirilən anım tədbirində deyilib.

Təşkilatın inzibati binasında keçirilən tədbirdə Xocalı soyqırımı qurbanlarının, həmçinin Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov qeyd edib ki, Xocalı soyqırımının dünyada tanıdılması, bu faciəyə lazımi qiymətin verilməsi üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində aparılan genişmiqyaslı fəaliyyət uğurlu nəticələrini verir. Bu baxımdan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər xüsusi vurğulanıb. Qeyd olunub ki, məhz bu kampaniya nəticəsində hazırda dünyanın bir sıra ölkələri, həmçinin bəzi beynəlxalq təşkilatlar Xocalı qətliamının soyqırımı kimi tanınması barədə qərarlar qəbul edib. Ayrı-ayrı dövlətlərdə Xocalı soyqırımı ilə bağlı abidələr ucaldılıb. Bu istiqamətdə aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının xatirəsi anılır, mitinqlər keçirilir, erməni vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər nümayiş etdirilir. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmdə Xocalı soyqırımının tanıdılması istiqamətində ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülüb.



"2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu torpaqlarımızın bir hissəsini işğaldan azad edib, uğurlu Naxçıvan əməliyyatı ilə 11 min hektar ərazi nəzarətimizə keçib. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz var. Mövcud status-kvo qəbuledilməzdir və Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxarılması tələbi daim gündəmdədir. Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaq", - deyə Cəlil Xəlilov vurğulayıb.

Mərasimdə Xocalı haqqında sənədli film nümayiş olunub.

Çıxış edənlər Xocalı soyqırımı barədə həqiqətlərin müxtəlif beynəlxalq təşkilatlar səviyyəsində qaldırılmasının əhəmiyyətindən, müxtəlif qurumların, xüsusilə Respublika Veteranlar Təşkilatının bu istiqamətdə fəaliyyətindən danışıb, səylərin gücləndirilməsinin zəruriliyini bildiriblər. Natiqlər torpaqlarımızın azad olunacağına qəti inam ifadə ediblər.

# Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçiriləcək

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin Xocalı soyqırımının iyirmi səkkizinci ildönümü haqqında Sərəncamının icrası ilə əlaqədar Müdafiə Nazirliyində tədbirlər planı təsdiq edilib.

Plana əsasən, Azərbaycan Ordusunda şəxsi heyətə vətənpərvərlik nümunələrinin təbliğ edilməsi, onların mənəvi və döyüş ruhunun yüksəldilməsi istiqamətində silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirlər çərçivəsində hərbi qulluqçular Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələri ziyarət edəcək, Müdafiə Nazirliyinin hərbi hissə, müəssisə və təşkilatlarında, həmçinin ümumtəhsil məktəblərində faciənin ildönümü ilə əlaqədar anım mərasimləri təşkil olunacaq.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzində, Hərb Tarixi Muzeyində kitab, foto və rəsm sərgilərinin, eləcə də səyyar-təşviqat qruplarının cəbhə bölgəsində yerləşən hərbi hissələrin şəxsi heyəti ilə görüşlərinin təşkili, xüsusi təyinatlı təhsil müəssisələrində və hərbi hissələrdə "XX əsrin faciəsi - Xocalı Soyqırımı" adlı tədbirlərin keçirilməsi, faciəyə həsr olunan ədəbi-bədii kompozisiyaların təqdim edilməsi, bədii və sənədli filmlərin nümayişi, "dəyirmi masa" və tematik gecələrin və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Fevralın 26-da saat 17.00-da Müdafiə Nazirliyinin tabeliyində olan bütün birlik, birləşmə, hərbi hissə, idarə, təşkilat və xüsusi təyinatlı təhsil müəssisələrində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək.

# Faciə tarix kimi yaşadılır




*Ermənistan Azərbaycana qarşı elan etmədən müharibəyə başladı. Xarici havadarlarının rəsmi, qeyri-rəsmi iqtisadi, eləcə də hərbi yardımlarından bəhrələnməklə Azərbaycanın ərazisində müxtəlif miqyaslı təxribatlar, faciələr törətdi: Qazax rayonu ərazisində sərnişin avtobusunda, Bakıda metro stansiyasında partlayış, Bağanıs-Ayrım, Ağdaban, Meşəli, Qaradağlı kəndlərində qırğınlar. Yüzlərlə azərbaycanlı qətlə yetirildi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə tikilə-tikilə böyüyən, böyüyə-böyüyə tikilən Xocalıda xüsusi qəddarlıqla ağlasığmaz faciə törədildi. Bu faciə XX əsrdə törədilmiş ən dəhşətli faciələrdən biri kimi tarixləşdi...Xocalı faciəsindən 28 il keçir. Xocalı faciəsi heç zaman unudulmayacaq. Gənclər bu faciənin ağrı-acılarını yaşaya-yaşaya onu tarix kimi yaşadır...*

**"Azərbaycan Ordusu"**

Mən Bakı şəhərində yaşayıram. Uşaqlığımda da, yeniyetməliyimdə də xalqımızın tarixini böyük maraqla, sevgilərlə oxumuşam, öyrənmişəm. Əsasən də az qala bizimlə yaşıd olan ən yeni tarixini. Xocalı faciəsi də həmin dövrə aiddir.

Xocalı faciəsi rus ordusunun dislokasiya yeri Xankəndi olan 366-cı alayının iştirakı ilə törədilib. Həmin gecə Xocalı istiqamətində hücuma keçən düşmən görünməmiş faciə törətdi. O gecə ölümdən qaçanları qarda, buzda, çöldə, düzdə, meşəlikdə haqlayır, xüsusi qəddarlıqla öldürür, hətta nəfəssizin cəsədini təhqir edirdilər. Əsir düşməsin deyə, öz ciyərparasını, sonra özünü öldürən ata da olub, ermənilərin çatdığını hiss edib evlərindən götürdüyü xəncəri ürəyinə sancan da, ermənilər duyuq düşüb 10-15 ailəni qırmasın deyə ağlayan südəmər körpəsini boğan ana da... Bunlar Xocalı faciəsində olub. Bunları xarici jurnalistlər də görüb. Təəssüflər olsun ki, dünya ictimaiyyəti belə faciəyə görə Ermənistanı dövlət səviyyəsində qınamır.

Vaxt gələcək, Ermənistan digər dövləti cinayətləri kimi, Xocalı faciəsinə görə də cavab verəcək.

Xocalı faciəsi əsrin ən böyük faciələrindəndir. Ötən əsrin əvvəllərində İrəvanda, Bakıda, Şamaxıda, Qubada,... törədilən qırğınlar kimi, Xocalı faciəsi də erməniliyin nə olduğunun təsdiqidir. Bəşəriliyin erməniliyi ittiham edəcəyi günə az qalıb. Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad edəcək, Azərbaycan diplomatiyası bu faciələrə bəşəri qiymət verilməsinə nail olacaq...

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

20 Yanvar faciəsi kimi, Xocalı faciəsi haqqında da ata-anamdan eşitmişdim. Danışdıqca niyə qəhərləndiklərini anlaya bilməzdim. Nəsə soruşanda da "Böyüyəndə biləcəksən, qızım...", - deyərdilər.

İkinci sinifdə oxuyanda Mənzər müəllim mənə bir bənd şeir verdi, əzbərlədim. Faciənin ildönümü tədbirində dedim. Sonra bildim ki, şeiri deyə-deyə gözlərimdən yaş gəlirmiş. Tədbir başa çatar-çatmaz Mənzər müəllimin göz yaşları saçlarımı islatdı. Aradan illər keçib. Həmin günün kövrək xatirələri yaddaşımdan pozulmayıb. Nə o duyğusal şeiri, nə onu duyğusallıqla deməyimi, nə də Mənzər müəllimin məni köksünə sıxmasını unutmamışam. Unutmayacam.

O vaxtdan illər keçib. O şeir mənim uşaqlıq illərimin yaddaşındadı:

Sıxıntılar içində
Döyünür ürəyimiz.
Bacı, qardaş bilirik
O gecə Xocalıda
Donan uşaqları biz...

Sonuncu sinifdə oxuyanda Xocalı faciəsinin ildönümünə həsr olunan tədbirdə ədəbiyyat müəllimimizin təklifiylə mən də danışdım. Doqquz il əvvəlki tədbirdə yaşadığım duyğulardan danışdım. Sonra "Düşmən bizim bəzi yaşıdlarımızı yaşamağa qoymadı. Neçəsini xüsusi qəddarlıqla öldürdülər. Bu ağrı-acılar torpaqlarımız işğaldan azad edildə kəsəcək, bu yaralar qələbədən sonra qaysaqlayacaq. Bunu Azərbaycan əsgəri gerçəkləşdirəcək. Mən həmyaşıdlarım adından əminliklə deyirəm ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin döyüş əmriylə Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edəcək..."

Xocalı faciəsi unudulmayacaq. Bu faciə tarix kimi yaşadılacaq.

**Gülsurə HÜSEYNOVA,**
**Bakı şəhəri**

AZƏRBAYCAN ORDUSU

# Minskdə Həzi Aslanovun 110 illiyi təntənəli şəkildə qeyd edilib

*Azərbaycanın Belarusdakı səfirliyi Minskdə, Belarus Dövlət Böyük Vətən Müharibəsi Muzeyində Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi ilə bağlı təntənəli yığıncaq keçirib.*

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə yüksək səviyyəli dövlət rəsmiləri, parlament üzvləri, Belarusda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, Belarus Ali Hərb Məktəbinin və Fövqəladə Hallar Nazirliyinin kursantları, yerli ictimaiyyətin nümayəndələri və diaspor təmsilçiləri iştirak ediblər.

Səfirliyin təşkilatçılığı və MDB İcraiyyə Komitəsinin dəstəyi ilə keçirilən tədbirin açılışında Azərbaycanın və Belarusun Dövlət himnləri səsləndirilib.

Tədbirin aparıcısı Həzi Aslanovun hərbi təhsil illəri və Böyük Vətən müharibəsi dövründə keçdiyi şərəfli döyüş yolu barədə məlumat verib.

Sonra çıxış edən səfir Lətif Qəndilov bu tədbirin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2019-cu il tarixində Həzi Aslanovun anadan olmasının 110 illiyinin dövlət səviyyəsində qeyd olunması barədə imzaladığı Sərəncama əsasən və Böyük Qələbənin 75 illiyi çərçivəsində qeyd olunduğunu söyləyib. 2020-ci ildə keçirilməsi nəzərdə tutulan bu tədbirlərin Böyük Qələbənin 75 illiyi ilə üst-üstə düşməsi Azərbaycan dövlətinin, xalqının, onun rəhbərliyinin və şəxsən İlham Əliyevin bu tarixi günə nə qədər böyük önəm verməsinin göstəricisi olduğunu xüsusi olaraq tədbir iştirakçılarının diqqətinə çatdırıb. Azərbaycanda Böyük Vətən müharibəsinin xatirəsinə aid hər bir abidənin dövlət tərəfindən qorunduğunu və xalqımız tərəfindən ona qayğı göstərildiyini qeyd edib. "Biz Həzi Aslanov kimi qəhrəmanlarımızın timsalında gənc nəslimizi yetişdiririk", - deyən səfir Lətif Qəndilov 1941-ci ildə 3 milyon əhalisi olan Azərbaycandan Böyük Vətən müharibəsində iştirak etmək üçün 600 mindən çox Azərbaycanlının cəbhəyə getdiyini, onlardan 300 mininin Böyük Qələbənin əldə olunması uğrunda canlarını fəda etdiklərini bildirib. "Bu isə döyüş bölgələrindən uzaq yerləşən ölkənin 10 nəfərindən birinin həlak olması deməkdir", - vurğulayan səfir Böyük Vətən müharibəsi illərində 128 azərbaycanlının Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü, onlardan 14-nün isə bilavasitə Belarusun azad olunmasında iştirak etdiyini qeyd edib. Belarusun azad edilməsi üçün ümumilikdə 20 mindən çox azərbaycanlının öz canlarından keçməsi barədə məlumat verib.

Səfir bildirib ki, ortaq Qələbənin əldə olunmasında Azərbaycan xalqının əvəzsiz xidmətləri olub. Xalqımız arxa cəbhədə də qəhrəmanlıq göstərərək Böyük Vətən müharibəsi zamanı cəbhənin tələb etdiyi yanacağın 80 faizini, sürtkü yağlarının 90 faizini, bundan



əlavə isti geyim, ərzaq və silah-sursatla təmin edib. Xalqımız, həmçinin cəbhəyə bir tondan çox qızıl və 10 tondan çox gümüş göndərib. Səfir Azərbaycan Hərb Məktəbinin təmsilçiləri "Rus artilleriyasının atası" ləqəbini daşıyan general-leytenant Əlağa Şıxlinskinin və artilleriya generalı Səməd bəy Mehmandarovun qoyduğu ənənələrin Həzi Aslanov tərəfindən layiqincə davam etdirildiyini bildirib.

L.Qəndilov Həzi Aslanovun qəhrəmanlığını öz sözləri ilə yox həmin dövrdə qəhrəmanımız barədə mətbuatda yayılmış çoxsaylı məqalələrdən yalnız birindən kiçik hissəni oxumaqla tədbir iştirakçılarının diqqətinə çatdırıb. Stalinqrad Cəbhəsinin "Sın Oteçestvo" qəzetinin 13 yanvar 1943-cü il nömrəsi yazırdı: "Tank əməliyyatlarını piyada qoşunu və artilleriya ilə necə əlaqələndirmək lazım olduğunu Polkovnik Həzi Aslanovun qvardiyasının hissələrindən öyrənmək lazımdır. Qoy Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun döyüş bacarığı bizim digər hissələr üçündə nümunə olsun".

L.Qəndilov "Baqration" əməliyyatının gedişində Həzi Aslanovun 35-ci qvardiya tank briqadasının başında Vileyka, Borisov, Smorqon və Minsk şəhərlərini azad etdiyini bildirib. Səfir Həzi Aslanovun Vileyka şəhərini alman faşistlərindən bir güllə atmadan azad etməsinin onun böyük və istedadlı sərkərdə olmasının bariz nümunəsi olduğunu söyləyib. L.Qəndilov yalnız 1944-cü ilin iyul ayında Həzi Aslanova Ali Baş Komandan İosif Stalin tərəfindən 8 dəfə təşəkkür elan edildiyini xatırladıb. İki dəfə Sovet İttifaqı Qəhrəmanımızın qorxmaz və heç bir çətinlik qarşısında geri dönməyən bir şəxs olduğunu, məhz bu xüsusiyyətlərə malik şəxsin 34 yaşında general-mayor rütbəsinə layiq görülməsinin mümkün olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən V.Quminski bildirib ki, keçmiş SSRİ-nin çoxsaylı xalqlarının birlikdə çətin sınaqlardan keçərək faşizm üzərində Böyük Qələbə qazanmaları ilə fəxr edirik. Bu tarixi fəxrimizin yaddaşlarda qorunub saxlanması bizim mənəvi borcumuzdur. Keçmiş SSRİ ölkələri arasında Böyük Vətən müharibəsi abidələrinin dağıdılmasının müşahidə olunduğunu və bunun qəbuledilməz olduğunu söyləyib.

Müdafiə nazirinin müavini Sergey Patapenko çıxış edərək SSRİ xalqlarının çiyin-çiyinə döyüşdüklərini və Azərbaycanın oğul və qızlarının qəhrəmanlıqları ilə fərqləndiklərini bildirib. S.Patapenko ətraflı şəklidə Həzi Aslanovun döyüş və həyat yolu barəsində məlumat verib. Həzi Aslanovun Stalinqradda mühasirəyə düşmüş Paulusun ordusuna köməyə gedən general Manşteynin qarşısını necə kəsdiyi haqqında və Baqration əməliyyatının həyata keçirilməsində göstərdiyi şücaət və qəhrəmanlıqlar barədə fəxrlə danışıb.

Belarus XİN-in xüsusi tapşırıqlar üzrə səfiri İqor Miqidoviç nazirliyin kollektivi adından və şəxsən öz adından Belarusun azad olunmasında iştirak etmiş Azərbaycanın qəhrəman oğlu Həzi Aslanovun 110 illiyinin keçirilməsinə görə təşəkkürlərini bildirib. O, Həzi Aslanovun ölməz qəhrəmanlıqları ilə Böyük Vətən müharibəsinin şərəfli səhifələrini yazdığını söyləyib. Həzi Aslanovun rəhbərliyi ilə təkcə Belarusun Borisov şəhərinin azad edilməsi əməliyyatında düşmənin 8 min nəfər şəxsi heyətinin məhv edildiyini xatırladıb: "Belarus xalqı iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovu hörmətlə xatırlayır. Belarusun tarixinə qardaş Azərbaycandan olan qəhrəmanların adları əbədi şəkildə yazılmışdır". İ.Miqidoviç Belarusun Böyük Vətən müharibəsindən sonra bərpa olunmasında da Azərbaycan xalqının aktiv iştirak etdiyini xüsusi vurğulayıb və buna görə öz təşəkkürünü bildirib.

"Belaya Rus" İctimai Birliyinin sədri Qenadi Davıdko öz çıxışında Azərbaycan xalqının qəhrəman oğlu Həzi Aslanovun ruhu qarşısında baş əymək üçün burada yığışdıqlarını söyləyib. O, səhnədən asılmış 14 Sovet İttifaqı Qəhrəmanının şəklinə işarə edərək bildirib: "Vətən onlardan həyatlarını istədi, onlar da tərəddüd etmədən verdilər". Azərbaycan qəhrəmanlarının Belarusun faşist işğalından azad olunmasında xüsusi rol oynadıqlarını bildirib. Belarusun müharibədən sonrakı dövrdə bərpa olunmasında azərbaycanlıların iştirakını bir daha xatırlayaraq, müasir dövrdə Azərbaycan liderinin Belarusa göstərdiyi yardımdan və dəstəkdən ətraflı danışıb. O, belə bir məqama toxunaraq söyləyib ki, dövlət başçılarımız arasında əsl səmimi insani dostluq var. Onun sözlərinə görə, Həzi Aslanovun ekranda təqdim olunan şəkillərinə baxanda qorxmaz insanın romantik gözlərini görürük, bu isə bütün azərbaycanlılara xas olan xüsusiyyətdir. Biz səhnədə ki, şəkillərdən bizə baxan azərbaycanlı qəhrəmanlara minnətdarıq deyə çıxışını bitirib.

Belarus Veteranlar Cəmiyyətinin sədri İvan Qordeyçik tədbirin keçirilməsinə görə səfirliyə təşəkkürünü bildirib. O qeyd edib ki, biz Azərbaycanla sıx şəkildə əməkdaşlıq edirik. Biz hamımız baş düşürük ki, Sovet İttifaqı Qəhrəmanı olmaq nə deməkdir. Əhalisinin üçdəbir hissəsi cəbhəyə gedən Azərbaycanın 128 Sovet İttifaqı Qəhrəmanı vardır. Azərbaycan əhalisinin üçdəiki hissəsi isə cəbhəni zəruri məhsullarla, xüsusilə yanacaqla təmin edib. O, tədbir iştirakçılarının diqqətini alman faşistlərinin Bakının neftinə can atmalarının təsadüfi olmaması faktına cəlb edib. Arxa cəbhədə olan azərbaycanlıların cəbhə üçün və faşizm üzərində qələbənin əldə olunması uğrunda əllərindən gələn hər şeyi etdiklərini söyləyib. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəhrəmanlığının onun döyüşçüləri üçün də nümunə olduğunu bildirib. Həzi Aslanovun qələbəyə inam ruhunu onlara da aşılaya bildiyini və onun döyüşçülərinin rəhbərlik tərəfindən çoxlu sayda orden və medallarla təltif edildiyini söyləyib. Sonuncu tank döyüşdən çıxana qədər Həzi Aslanovun hər zaman döyüşdə qaldığını qeyd edib və "Bax Həzi Aslanov budur" deyə vurğulayıb. Belarus xalqı azərbaycanlı Həzi Aslanov qarşısında baş əyir. İ.Qordeyçik Azərbaycan xalqının öz qəhrəmanlarına belə böyük hörmətlə yanaşdığına görə çox sevindiyini bildirib.

Səfir L.Qəndilov sonda bir daha çıxış edərək tədbirdə iştirak etdiklərinə görə hər kəsə öz təşəkkürünü bildirib və bu tədbirin yalnız Həzi Aslanovun deyil, Böyük Qələbənin əldə olunmasında həlak olanların və müharibə iştirakçılarının xatirəsinə də həsr edildiyini bildirib. Səfir qeyd edib ki, Həzi Aslanovun ruhu buradadır, o 75 il bundan əvvəl heç vaxt inanmazdı ki, Vətəni Azərbaycanın 20 faiz torpaqları Ermənistan tərəfindən işğal olunacaq. Biz çox təəssüf edirik ki, bütün dünyanın gözü qarşısında bu işğal davam etməkdədir.

L.Qəndilov Azərbaycan qəhrəmanlarının xatirəsini əziz tutduqları üçün, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiklərinə görə Belarus xalqına və Prezident Aleksandr Lukaşenkoya təşəkkürlərini səsləndirib. Tədbirin davamında Həzi Aslanova həsr olunmuş sənədli və bədii filmlər nümayiş etdirilib. Tədbir iştirakçıları filmləri böyük maraqla izləyib və alqışlarla qarşılayıblar.

Tədbir iştirakçıları, eyni zamanda, Belarusun azad olunmasında iştirak etmiş Sovet İttifaqı Qəhrəmanı olan 14 azərbaycanlının şəkillərindən ibarət stendlə tanış olub və birgə fotoşəkil çəkdiriblər. Tədbirin sonunda səfirlik tərəfindən ziyafət təşkil olunub.

# Azərbaycan hərbçiləri Gürcüstanda keçirilən beynəlxalq tədbirdə iştirak ediblər



*Gürcüstan Silahlı Qüvvələrinin Besik Kutataladze adına Saçxere Dağ Hazırlığı Təlim Mərkəzinin yaranmasının 14-cü ildönümü qeyd olunub.*

AZƏRTAC xəbər verir ki, bu münasibətlə təşkil olunan mərasimdə və nümunəvi təlim çıxışlarında Gürcüstan, Azərbaycan, Polşa, Latviya və digər ölkələrin hərbçiləri də iştirak ediblər.

Gürcüstanın Müdafiə Nazirliyindən bildiriblər ki, ölkənin müdafiə qüvvələri komandanının müavini briqada generalı İrakli Dzneladze Mərkəzin şəxsi heyətini təbrik edib, bu qurumun inkişafına göstərdiyi dəstəyə görə Fransa dövlətinə minnətdarlığını bildirib.

Tədbir çərçivəsində Mərkəzin rəhbəri polkovnik-leytenant Malxaz Qoletiani Fransa Müdafiə Nazirliyinin gümüş medalı ilə təltif olunub.

Qeyd edək ki, Mərkəzin inşasına 2005-ci ildə başlanılıb və rəsmi olaraq 2006-cı ildə açılıb. Məktəb Bidzina İvanişvilinin Kartu Fondunun maliyyə dəstəyi ilə tikilib və maddi-texniki baza ilə təchiz olunub.

Təlim mərkəzində NATO-ya üzv və tərəfdaş ölkələrin hərbçiləri üçün beynəlxalq səviyyəli təlimlər təşkil olunur.



Mərasimdə Azərbaycanın Gürcüstandakı səfirliyinin hərbi attaşe aparatının rəhbəri polkovnik-leytenant Fuad İbrahimov iştirak edib.

## Ağdamda şəhid Ayaz Abbasovun xatirəsi anılıb

Ağdam rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə şəhid Ayaz Abbasovun xatirəsi anılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində keçirilən tədbirdə əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mərasimdə Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Ülvi Qədirov, Döyüş Şöhrəti Muzeyinin direktoru Sahib Məmmədov, Zəngişalı kənd mədəniyyət evinin müdiri Fikrət Əliyev, şəhidin qardaşları Niyaz və Qiyas Abbasovlar, sinif yoldaşları və müharibə veteranları çıxış edərək, onun həyat və qəhrəmanlıqla dolu döyüş yolundan danışıblar.

Qeyd olunub ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlayanda Ayaz Abbasov da könüllü olaraq Vətənimizin müdafiəsinə qalxıb. Bir çox döyüşlərdə iştirak edib. 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndinin müdafiəsi zamanı şəhid olub. Vaxtilə təhsil aldığı Qaradağlı kənd orta məktəbi onun adını daşıyır.

Mərasim iştirakçıları şəhid Ayaz Abbasov haqqında videoslaydı izləyiblər, məktəblilər ədəbi-bədii kompozisiya təqdim ediblər.

### Ordu və cəmiyyət

## “Gördüklərimizdən çox sevindik...”

*Andiçmə mərasimindən sonra valideynlər övladlarının xidmət yerləriylə tanış oldular. Onların rahat şəraitdə xidmət etdiklərini, komandirlərin diqqət və qayğısı ilə əhatə olunduqlarını yaxından gördülər.*



Hərbi hissə ilə tanışlıq əsgər yataqxanasından başlandı. Hər tərəfində səliqə-sahman, hökm sürən yataqxanada yığışdırılmış çarpayılara baxış da valideynləri razı saldı. Onlar qızdırıcı sistemlərlə də maraqlandılar.

Yeməkxananın girişində əsgərlər üçün nəzərdə tutulan ərzaq növləri və ədviyyatlarla tanış oldular, bişirilmiş yeməklərin dadına baxdılar.

Əsgər atası Əfqan Əsgərov dedi ki, bizim nəsillər hərbi xidmətini keçmiş ittifaqın ordusunda keçiblər. Özü də ölkəmizdən çox-çox uzaqlarda. Bizim övladlarımız Vətənimizdə xidmət edirlər, doğma torpaqlarımızı qoruyurlar. Yataqxanalara, yeməkxanalara baxdıqca ürəyim dağa döndü. Övladlarımız üçün belə şərait yaradıldığına görə çox sevindim. Sovet ordusunda bu cür geyim, yataq, hamam dəstləri yox idi. Yaradılmış bu yüksək şəraitə, diqqət və qayğıya görə Ali Baş Komandan cənab İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova bütün valideynlər adından dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, övladlarımız Vətənə layiqincə xidmət edəcək, Hərbi anda həmişə sadiq qalacaqlar. Mən bütün əsgərlərə xidmətlərində uğurlar arzulayıram.

- Bu gün oğlum İbrahimin andiçmə mərasimində iştirak etdim, - əsgər anası Həlimə Məmmədova dedi. - Valideyn üçün böyük sevincdi. Oğullar Vətəni qorumaq üçün doğulur. Bu təntənəli gün həmişəlik olaraq yaddaşımda qalacaq. Bu dördüncü oğlumdur ki, əyninə Silahlı Qüvvələrimizin formasını geyinir. İnanıram ki, İbrahim də qardaşları kimi Vətənə layiqincə xidmət edəcək, valideynlərinin yanına alnıaçıq, başıuca qayıdacaq. Andiçmə mərasimindən sonra övladımın yatdığı yataqxanaya, çörək yediyi yeməkxanaya baxdıq. Gördüklərimdən ürəyim dağa döndü.

Nəriman Həsənov, Hakim Məmmədov, Natiq Həsənov, Oksana Novruzova və başqaları da hərbi hissədəki şəraitə görə Ali Baş Komandana, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

## Xəbərlər: hadisələr, faktlar

### Türkiyənin İdliblə bağlı mövqeyi Soçi razılaşmasını həyata keçirməkdir




Türkiyənin İdliblə bağlı mövqeyi Soçi razılaşmasını həyata keçirməkdir. Hazırda Rusiya ilə aparılan müzakirələrdə Türkiyə tərəfini qane edən nəticə yoxdur. Türkiyə təklif olunan sənədi və xəritəni qəbul etməyib.

Bu fikirləri Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın bildirib. Dövlət rəsmisi bildirib ki, Suriya ərazisindəki Türkiyə hərbçilərinin müşahidə-patrul məntəqələrinin yerlərinin dəyişdirilməsi müzakirə mövzusu deyil. Əgər türkiyəli hərbçilərə atəş açılsa, qarşı tərəf əvvəl olduğu kimi ən sərt şəkildə cavab alacaq.

### İran, Rusiya və Türkiyə prezidentləri Tehranda görüşəcəklər



Martın əvvəllərində İran, Rusiya və Türkiyə prezidentlərinin Tehranda üçtərəfli görüşü gözlənilir.

Görüşdə Həsən Ruhani, Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan Suriya probleminin həlli yollarını müzakirə edəcəklər.

### Rusiya Silahlı Qüvvələrinin hərbi qulluqçuları müqavilə əsasında xidmət edəcəklər



Rusiya Silahlı Qüvvələri bir müddətdən sonra tamamilə müqavilə əsasında xidmət edən hərbçilərdən ibarət olacaq.

Bu barədə jurnalistlərə Rusiya Federasiya Şurasının müdafiə və təhlükəsizlik komitəsinin sədri Viktor Bondaryev məlumat verib. O deyib ki, Rusiyada həqiqi hərbi xidmətə ildə iki dəfə keçirilən çağırış zamanı 150 min əsgər xidmətə cəlb olunur. Hazırda hərbi xidmət keçən əsgərlər gələcəkdə mobil ehtiyat qüvvələrini təşkil edəcəklər.

V.Bondaryev qeyd edib ki, bu gün cəmiyyətdə orduda qulluq etməyə maraq yüksəkdir. Bu, 2017-ci ildə qəbul edilmiş və hərbi qulluq keçməyən şəxslərə 10 il dövlət və bələdiyyə qulluğunda işləməyi qadağan edən qanunla bağlıdır.

V.Bondaryevin sözlərinə görə, indi Rusiya ordusunda təxminən 400 min hərbçi müqavilə əsasında xidmət edir.

### Somalidə “Əl-Şabaab” terror təşkilatının 12 üzvü öldürülüb



Somali ordusunun keçirdiyi hərbi əməliyyatda bu ölkənin Aşağı Şabelle regionunun cənubunda yerləşən terrorçu düşərgəsi məhv edilib. Ordunun xüsusi təyinatlı dəstəsi "Əl-Şabaab" terror təşkilatının 12 üzvünü öldürüb.

Somali Xüsusi Təyinatlı Qoşun Hissəsinin komandiri İsmayıl Əbdi Malik bildirib ki, terrorçuların bazasından çoxlu silah-sursat müsadirə edilib. Onun sözlərinə görə, atışmalar zamanı əsgərlər arasında ölən olmayıb. Komandir əlavə edib ki, ordunun əməliyyatları terrorçuların bu bölgədən tamamilə təmizlənməsinə qədər davam edəcək.

Hərbi əməliyyat zamanı yerli sakinlər bölgəni tərk etməyə məcbur olublar.

Somalinin cənub bölgəsi 2011-ci ildən bəri - "Əl-Şabaab" terrorçularının paytaxt Moqadişodan çıxarılmasından sonra davam edir. Antiterror əməliyyatları Somali ordusu və Afrika Müttəfiq Qoşunu tərəfindən həyata keçirilir.

**AZƏRTAC-ın materialları əsasında**

### Hərbi texnikalar, silahlar

## “Tornado-S” reaktiv sistemi





Rus ordusunun müasir artilleriya silahlanmasının güclü növlərindən biri də yaylım atəşli "Tornado-S" reaktiv sistemidir. "Tornado-S" reaktiv sistemi Rusiyanın 122 və 300 mm-lik modernləşdirilmiş yaylım atəşli reaktiv sistemlər ailəsinə aiddir və uzaq məsafələrdə yerləşən qruplu hədəfləri (canlı qüvvə, zirehsiz, yüngül zirehli və zirehli texnikalar), taktiki raketləri, zenit kompleksləri, dayanacaqlarda dayanan helikopterləri, komanda məntəqələrini, rabitə xətlərini, hərbi-sənaye strukturlarını məhv etmək üçün təyin edilib. Müasir "Tornado-S" buraxıcı qurğusunda yerli QLONASS naviqatorlu atəşi idarəetmə sistemi və yeni kompüterləşdirilmiş ballistik hesablayıcının olması hesabına yüksək döyüş effektivliyinə malikdir. Sistem müasir idarəetmə raketləri ilə də təchiz edilib. "Tornado-S" Tulanın "Splav" elm-istehsalat birliyində hazırlanıb. Bu müəssisədə dünya səviyyəli silahlar hazırlanır. "Tornado-S" reaktiv sistemi hədəfə qədər bir neçə ton partlayıcı maddə daşıya bilir. "Tornado-S" yaylım atəşli reaktiv sisteminin əsas xüsusiyyəti tuşlama və atəşi həyata keçirmək üçün müasir avtomatlaşdırılmış idarə sistemidir. O, avtomatik olaraq hədəflər üzrə məlumatları hesablayır. Müasir sistem kompleksin qısa vaxt ərzində səyyar vəziyyətindən döyüş vəziyyətinə keçməsinə kömək edir. Reaktiv sistem reaktiv mərmilərdən və üç döyüş maşınından ibarətdir: döyüş (buraxıcı qurğu), nəqliyyat-təchizat və komanda. Buradan bort kompüterinin köməyi ilə atəşin idarə edilməsi həyata keçirilir. Texnika yaylım atəşi zamanı maşını tərk etməyə imkan vermir. Operator pultun köməyi ilə atəş açmanı idarə edir. "Tornado"nun heyəti üç nəfərdən ibarətdir. Ondan atəş təktək yüksək dəqiqlikli raketlərlə, yaylım atəşi ilə açılır. Sürəti saatda 85 kilometrdir. Atəşaçma uzaqlığı 200 kilometrə qədərdir. Bundan başqa, sistemin tərkibinə təlim-məşq kompleksi, meteoroloji maşın, atəşi avtomatik idarə etmək üçün "Uspex-R" sistemi də daxildir.

9A54 döyüş maşını bortu idarəetmə aparatı və rabitə sistemi (ABUS), tuşlama və atəşi idarə etmək üçün avtomatlaşdırılmış sistemlə (ASUNO), peyk naviqasiya sistemli yerüstü aparatla da təchiz edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ən gözəl nahar

*Esse*



Qışın sazağında insafsızcasına əsən yel ağacların son yarpaqlarını da qopardıb hara gəldi atır, teylədikcə teyləyir. Elə bil əsəbini, qəzəbini tökməyə təklənmiş ağac, təklənmiş ağacda çılpaq budaq, çılpaq budaqda saralmış yarpaq həsrətlisiymiş. Qışın qış günü bu biçim çılğınlıq kimsənin könlünə yatmır; yarpaqlar yeriş gödəldir, addım qısaldır. Yerişi özündən qabağa qaçan yeniyetmə ayağı altına düşən yarpağı görüncə dayanır, onu çığnamağa, əzib keçməyə ürəyi gəlmir. Yarpaq bir nəfəs dərimi vaxt ötüncə uzaqlaşır. Yeniyetməyə elə gəlir ki, bu müddət uzun çəkdi, hərbi hissənin nəzarət-buraxılış məntəqəsi göyqurşağı kimidi, yaxınlaşırsan, çata bilmirsən. Yeniyetmə bu 100-150 addımlıq yolun sonuna çatmağa tələsir. Qardaşını hərbi mundirlilərin arasında görməyə tələsir, onun boynuna sarılmağa tələsir, nəsə soruşmağa, düşüncələrinin nizamına dönəsi könüləyatımlı cavablar almağa tələsir...

Əsən yel çılpaq ağacların budaqlarında nəfəs dərir...

Yeniyetmə atasını tələsdirir:

- Gecikəcəyik...

Atanın mehirli əli ürəyinin yedəyinə düşüb gedən oğlunun çiyninə enir: "Tələsmə, hələ vaxta var..."...

Yeniyetməyə baxıram, atasına baxıram, bir qədər aralıda əsgər oğlunu bağrına basan anaya baxıram. Gördüklərim düşüncələrimin haləsinə dönür...

Günlər ay olur, aylar il, ana arzusuyca oğullar böyüyür...

Ata istəyiycə oğullar böyüyür...

Oğullar böyüyür - arzu böyüyür, istək böyüyür, muraz böyüyür, murad böyüyür. Oğullar böyüyür - bir ad böyüyür: Əsgər!

Oğullar əsgər gedir. Atana dünyasından laylalar əsgər gedir, oxşamalar, bayatılar, nağıllar əsgər gedir; Azərbaycanın folkloru da Vətənin keşiyindədi - düşməni zəbun edən Qaraca Çobanlar Vətənin keşiyindədi, üç eyni boyda, eyni rəngdə almanı bir-birindən fərqləndirən dərzi şagirdi Əhmədlər Vətənin keşiyindədi, qaranlıq dünyadan işıqlı dünyaya çıxmağı bacaran Məlik Məmmədlər Vətənin keşiyindədi,...

Əsgərlərin atası, anası, qardaşı hərbi hissədə ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatların nəticələrinin bir hissəsini görür, inzibati binaları, əsgər yataqxanalarını, camaşırxanaları, idman şəhərciyini, yeməkxananı görür. Görür və qürurlanır.

Hərbi andiçmə təkcə gənc əsgərlərin sədaqət andı içməsi deyil, bu tədbir Vətən sevgisinin ucalığına inamın tədbiridi, bu inamdan dikələn duyğuların tədbiridi, ordu-ictimaiyyət münasibətlərinin yaşarılığına zəmanət tədbiridi...

Əsgər oğullar Hərbi and içir, Vətənə sədaqət andıdı bu and. Bir az əvvəl Hərbi and içən əsgər də, ata-anası da belə gözəl bir günün gözəl anlarını yaşayır - görürsən ürəyin dağa dönür.

Və əsgər süfrəsi...

Ata - Bəhmən Novruzov, ana - Oksana Novruzova, oğul - əsgər Vüsal Novruzlu bir aydı beləcə, üz-üzə, dizdizə oturmurdular, bir aydı üçlükdə, şirin-şirin, ağız dadıynan çörək yemirdilər. Süfrə əsgər süfrəsidi, əlbəttə ki, nahar gözəl nahardı!

Əsgər süfrəsində birlikdə könül xoşluğuyla, ağız dadıyla nahar. Əsgərlərin baxışlarında misralaşmış fikri oxuya bildim:

"Bir anan - mən, biri -
Vətən!", - deyərdin,
Vətən boyda ucalıqda,
bu öyüd
Ömrümüzün haləsidi,
ay ana!
Gözlərintək ürəyin də
sevinsin,
Süfrə əsgər süfrəsidi,
ay ana!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Ermənistan ordusunda kriminal hadisələr

Rəsmi mənbələrə əsasən, 2019-cu ildə Ermənistan ordusunda 49 ölüm və 32 yaralanma hadisəsi qeydə alınıb.

Ölkənin baş naziri Nikol Paşinyan, Müdafiə naziri David Tonoyan və tərəfdarlarının "göylərə" qaldırdıqları işğalçı ölkənin silahlı qüvvələri 2020-ci ilə "uğurla" - 4 ölü, 12 yaralı ilə başlayıb.

Bəs, işğalçı ordu 2019-cu ili necə yola salıb? Əvvəla, onu bildirək ki, burada qeyd edilən məlumatlar rəsmi mənbələrdən, sosial şəbəkə istifadəçilərinin paylaşımlarından əldə edilib və yalnız Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən 1-ci ümumqoşun ordusunda baş verən hadisələrin xülasəsini əhatə edir.

Zabitlərin özbaşınalığı, vəzifə səlahiyyətindən sui-istifadə, qeyri-döyüş şəraitində xəsarətalma, özünəqəsd, qəsdən adamöldürmə, oğurluq, hərbi xidmətdənyayınma, nizamnamədənkənar münasibətlər və digər qanunsuzluqlar səbəbindən baş verən cinayətlərin sayına görə işğal edilmiş ərazilərimizdə yerləşdirilən düşmən ordusu rekord göstəricilərə malikdir.

Bu tip cinayət və hadisələr, xüsusilə işğalçı ordunun 5-ci, 6-cı, 7-ci dağatıcı alaylarında və 9-cu motoatıcı alayında daha qabarıq şəkildə özünü büruzə verib.

Hərbi hissəni özbaşına tərketmə və hərbi xidmətdənyayınma halları isə adı çəkilən düşmən ordu birləşməsinin tabeliyində olan hərbi hissələrdə 75 dəfə qeydə alınıb. Eyni zamanda, hərbi hissələrdə il ərzində Ermənistandan olan ermənilərlə Qarabağ erməniləri arasında yerlibazlıq zəminində 12 dəfə kütləvi dava qeydə alınıb. Bu səbəbdən onlarla hərbi qulluqçunun xəsarət aldığı, həmçinin cinayət məsuliyyətinə cəlb edildiyi də məlum olub.

Bütün bu neqativ halların nəticəsi olaraq daxili xidmət və döyüş növbətçiliyinin təşkili və aparılması qaydaları 21 dəfə pozulmuş, zabit və əsgərlər tərəfindən xidmət zamanı 7 dəfə spirtli içki, narkotik və toksiki maddələrin qəbul edilməsi halları qeydə alınmışdır. Hərbi qulluqçular tərəfindən 119 dəfə qəsdən və ehtiyatsızlıqdan adamöldürmə, sağlamlığa zərəryetirmə kimi cinayət hadisəsi törədilmişdir.

Hərbi intizamın aşağı olması səbəbindən ordu komandanlığı seksual xarakterli hərəkətlərə məcburetmə, cinsi istismar, əxlaqsızlıq və zorlama, eləcə də yerli əhaliyə qarşı nalayiq hərəkətetmə kimi halların qarşısını almaqda da acizdir.

Ötən il ərzində Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun tabeliyində olan hərbi hissələrdə rüşvət alma və vermə, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə halları 29 dəfə baş verib.

İşğal edilmiş ərazilərimizdə yerləşdirilən düşmən ordusunun hərbi hissələrində ehtiyatsızlıq nəticəsində silahdan açılan atəş, o cümlədən qumbara, mina və digər partlayıcı maddələrin partlaması nəticəsində 100-dən çox hadisə zamanı çoxlu sayda itki olub. Sadaladıqlarımızdan əlavə yanğın hadisələri və avtomobil qəzalarının çoxluğu da erməni hərbi qulluqçularının qeyri-peşəkar və məsuliyyətsiz davranışlarının göstəricisidir.

Mütəmadi baş verən intizam pozuntusu hallarını, cinayət və hadisələri ört-basdır etmək və bütün hadisələrin tam nəzarətdə olmasını göstərmək məqsədilə Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun komandanlığı media nümayəndələrini özlərinin seçdiyi və bəzək-düzək verdiyi hərbi hissələrə dəvət edir. Aparılan saxta çəkilişlərin köməyi ilə komandanlıq ictimaiyyətin diqqətini yayındırmağa, vəziyyətin guya yaxşı olduğunu göstərməyə, neqativ halların və cinayətlərin kütləvi olmadığını sübut etməyə çalışır.

Lakin vəziyyətin qısa təhlili göstərir ki, Ermənistan hərbi rəhbərliyi dərindən-qabıqdan çıxsa da, baş verən neqativ halların qarşısını almağa, cinayət və hadisələrin sayının azalmasına nail ola bilmir. Bu da ondan irəli gəlir ki, düşmən ordusunun özü və rəhbərliyi rüşvət, korrupsiya, hərbi büdcəni talama və saxtakarlıq bataqlığına qərq olub. Bütün bunlar isə gələcəkdə də işğalçı orduda cinayətlərin yüksələn templə davam edəcəyindən xəbər verir.

Cinayətkar hərbi-siyasi rejim hər vəchlə hadisələrin çoxunu erməni ictimaiyyətindən gizlətməyə çalışsa da, hərbi qulluqçuların ailə üzvləri öz dərdlərini sosial şəbəkələrdə bölüşməklə Müdafiə naziri David Tonoyanın dağıdıcı fəaliyyətini ifşa edirlər.

Nəzərə alsaq ki, hadisələrin xeyli hissəsi əhalidən gizlədilir və sadaladığımız faktları Ermənistanın bütün silahlı qüvvələri miqyasında hesablasaq, o zaman işğalçı orduda vəziyyətin nə dərəcədə acınacaqlı və dözülməz olduğunu təsəvvür etmək heç də çətin deyil.

**Hazırladı:**
**İsa ELDAROĞLU,**
**hərbi jurnalist**

# İdman

## Avropa çempionu Nazim Babayev beynəlxalq turndirdə gümüş medal qazanıb



Fevralın 19-da Avropa çempionu Nazim Babayev Fransanın Lievin şəhərində keçirilən atletika üzrə "Meeting Hauts de France pas de Calais" beynəlxalq turnirində iştirak edib.

Turnirdə üç təkanla tullanma növündə mübarizə aparan idmançımız 17,15 metr nəticə göstərərək ikinci olub. Yarış cari ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıdığı üçün N.Babayev bu nəticə ilə "Tokio 2020" lisenziya qazanıb. Turnirdə Burkina Fasonu təmsil edən Huques Fabrike Zanqo 17,51 nəticə ilə bütün rəqiblərini qabağlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, N.Babayev fevralın 15-də İstanbulda keçirilən Balkan çempionatında qızıl medal qazanaraq Azərbaycan bayrağını zirvələrə qaldırıb.

## Azərbaycan şahmatçısı Misrəddin İsgəndərov "Caspian Cup" festivalının qalibi olub



İranın Rəşt şəhərində keçirilən və Azərbaycan şahmatçılarının da qatıldıqları 18-ci "Caspian Cup" festivalı fevralın 19-da başa çatıb.

Festivalın A (masters) turnirində mübarizə aparan şahmatçılarımızdan Misrəddin İsgəndərov parlaq nəticə göstərərək turnirin qalibi olub. Şahmatçımız 9 turdan 8 xal toplayıb. İkinci yerdə 7,5 xalla İran təmsilçisi Araş Tahbaz qərarlaşıb. Üçüncü yeri isə 7 xalla Ermənistan şahmatçısı Gevorq Harutyunyan tutub.

## Paracüdoçularımız Böyük Britaniya Qran-Prisinə Gürcüstanda hazırlaşırlar



Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) kişilərdən ibarət cüdo üzrə milli komandası Gürcüstanın Qori şəhərində təlim-məşq toplanışında iştirak edir. Baş məşqçi İbrahim İbrahimovun rəhbərliyi altında keçən hazırlıq martın 3-dək davam edəcək.

## Üzgüçülük üzrə "Qızıl balıq" Bakı birinciliyi keçirilib



Bakı şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) Abşeron Olimpiya İdman Kompleksində üzgüçülük üzrə "Qızıl balıq" paytaxt birinciliyi keçirilib. Birincilikdə 92 idmançı iştirak edib. Müxtəlif kateqoriyalar üzrə keçirilən yarışda 4x50 metr qarışıq və sərbəst üsulla üzgüçülükdə "Şüa" idman klubu birinci olub. Qaliblər Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom, kubok və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Baş leytenantlar Zamanov Cəlal Zahid oğluna, Məmmədov Rövşən Əzim oğluna, Maxsudov Əbdüləzim Duman oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş gizirlər Mahmudov Hüseyn Əliyusif oğluna, Ərəbov Elman Vəlyullah oğluna, gizirlər Abdullayev Elman Elxan oğluna, Abdurəhmanov Rəşad Eldar oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 83
Nüsxə 3900